**İş № 1-1 (103) - 29/2008**

# BAKI APELLYASİYA MƏHKƏMƏSİNİN APELLYASİYA ŞİKAYƏTLƏRİNƏ BAXIŞ İCLASININ YEKUN

# Q Ə R A R I

**12 sentyabr 2008-ci il** **Bakı şəhəri**

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kolleqiyası aşağıdakı tərkibdə:

Sədrlik edən – Qasımov Faiq Adil oğlu,

Hakimlər – Hüseynov Mirpaşa Suleyman oğlu və Ramazanov Camal Cumar oğlu tərkibdə,

Rüstəmov Taleh Bəxtiyar oğlunun katibliyi ilə,

Dövlət ittihamçısı – Azərbaycan Respublikası Baş Prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru ədliyyə müşaviri Nəsirov Murad Camov oğlunun,

Müdafiəçi – Bakı şəhəri 1 saylı hüquq məsləhətxanasının vəkili Cahangirov Mirələm Səmidxan oğlunun iştirakı ilə məhkəmə baxış iclasında Qasımov Namiq Mayıl oğlunun Azərbaycan Respublikası CM-nin 333.1, 334.1 maddələri ilə məhkum olunmasına dair cinayət işi üzrə Bakı Hərbi Məhkəməsinin 24.04.2008-ci il tarixli hökmündən məhkum N.M.Qasımovun müdafiəçisi M.S.Cahangirov tərəfindən verilmiş apellyasiya şikayətinə baxaraq

## MÜƏYYƏN ETDİ:

Bakı Hərbi Məhkəməsinin 24.04.2008-ci il tarixli hökmü ilə ( sədrlik S.B.Hüseynov )

18 yanvar 1981-ci il tarixdə Bərdə rayonu Divanlı kəndində anadan olmuş, subay, Azərbaycan Respublikasının vətəndaşı, orta təhsilli, əvvəllər məhkum olunmamış, təkmilləşdirmə kursunun mudavimi,

Qasımov Namiq Mayıl oğlu Azərbaycan Respublikası CM-nin 331.1,334.1 maddələri ilə təqsirli bilinərək Azərbaycan Respublikası CM-nin 331.1 maddəsi ilə 9 ( doqquz) ay müddətinə intizam xarakterli hərbi hissədə saxlama cəzasına və həmin Məcəllənin 334.1-ci maddəsi ilə təqsirli bilinib 4 (dörd) il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilvmiş və Azərbaycan Respublikası CM-nin 68.1.1-ci maddəsinə əsasən intizam xarakterli hərbi hissədə saxlamanın bir günü azadlıqdan məhrum etmənin bir gününə bərabər tutulmaqla 9 (doqquz) ay azadlıqdan məhrum etmə kimi hesablanaraq həmin Məcəllənin 66.3-cü maddəsinə əsasən 4 (dörd) il azadlıqdan məhrum etmə cəzası ilə qismən toplanılmaqla qəti olaraq 4 (dörd) il 6 (altı) ay müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilmişdir.

Məhkəmənin hökmünə əsasən Qasımov Namiq Mayıl oğlu 20 yanvar 1999-cu il tarixdə Bərdə rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq «N» saylı hərbi hissədə müddətli hərbi xidmətə başlamış, Zabit heyətinin təkmilləşdirmə kursu rəisinin 05 iyun 2000-ci il tarixli 118 saylı əmri ilə gizirlərin hazırlıq kursuna daxil edilmiş, müdavim

kimi həmin kursda xidmət edərkən 08 iyul 2000-ci il tarixdə saat 19 radələrində qulluq yerini özbaşına tərk etmiş, 12 iyul 2000-ci il tarixdə saat 10 radələrində xidmət yerinə qayıtmışdır.

Bundan başqa N.M.Qasımov gizirlərin hazırlıq kursunda müdavim kimi xidmət edərkən hərbi xidmətdən boyun qaçırtmaq məqsədi ilə 23 iyul 2000-ci il tarixdə saat 18 radələrində qulluq yerini özbaşına buraxıb getmiş və bir daha qulluq yerinə qayıtmamış, 06 mart 2001-ci il tarixdə təqsirini boynuna almaqla könüllü olaraq Bakı qarnizonu hərbi prokurorluğuna gəlmişdir.

N.M.Qasımovun müdafiəçisi M..S.Cahangirovun hökmdən apellyasiya şikayəti verərək Bakı Hərbi Məhkəməsinin 24.04.2008-ci il tarixli hökmünü cəzanın ağırlığına görə ləğv edilib yeni qərar çıxarılmasını xahiş etmişdir.

Müdafiəçi M.S.Cahangirov xahişini şikayətdə onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsi N.M.Qasımova cəza təyin edərkən onun ağır ailə vəziyyətini, xəstə valideynlərini , yeni ailə qurduğunu nəzərə almamışdır.

Bakı Apellyasiya Məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyası cinayət işinin materiallarını araşdırıb, apellyasiya şikayətinin dəlillərini müzakirə edərək və dövlət ittihamçısının həmin şikayətin təmin edilməməsi haqda rəyini dinləyərək hesab edir ki, aşağıdakı əsaslara görə Bakı Hərbi Məhkəməsinin 24.04.2008-ci il tarixli hökmü dəyişdirilməlidir.

Müdafiəçi apellyasiya şikayətində məhkumun əməlinin hüquqi tövsifi məsələsini mübahisə etməmişdir.

İş materiallarından göründüyü kimi N.M.Qasımov 20 yanvar 1999-cu il tarixdə Bərdə rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq «N» saylı hərbi hissədə müddətli hərbi xidmətə başlamış, Zabit heyətinin təkmilləşdirmə kursu rəisinin 05 iyun 2000-ci il tarixli 118 saylı əmri ilə gizirlərin hazırlıq kursuna daxil edilmiş və müdavim kimi həmin kursda xidmət edərkən 08 iyul 2000-ci il tarixdə dayısı Abbasov Xanoğlan Rəhm oğlunun vəfatı ilə əlaqədar saat 19 radələrində qulluq yerini özbaşına tərk etmiş və yas mərasimində iştirak etdikdən sonra 12 iyul 2000-ci il tarixdə saat 10 radələrində xidmət yerinə qayıtmışdır.

İş materiallarına əlavə edilmiş arayışdan görünür ki, həqiqətən Bərdə rayonu Divanlı kənd sakini Abbasov Xanoğlan Rəhim oğlu 06.07.2000-ci il tarixdə vəfat etmişdir.

Azərbaycan Respublikası CM-nin 333.1 maddəsinə əsasən çağırış üzrə hərbi xidmətdə olan hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsi üç gündən artıq, lakin on gündən çox olmadıqda cinayət məsuliyyəti yaradır.

Həmin maddənin qeydində göstərilmişdir ki, ağır şərait zəminində bu Məcəllənin 333.1-333.4 maddələrində nəzərdə tutulmuş əməlləri ilk dəfə törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.

Azərbaycan Respulrikası Ali Məhkəməsi Plenumunun « Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında» 01 noyabr 2001-ci il tarixli 1 saylı Qərarının 15-ci bəndində göstərilmişdir ki, « Qanunun mənasına görə « ağır şərait» anlayışına hərbi qulluqçunun yaxın qohumlarının gözlənilməz ağır xəstəliyi, ciddi ailə münaqişələri, hərbi qulluqçunun yaxın qohumlarının yaşadığı yerdə baş vermiş təbii fəlakət və bu kimi hallar daxildir.

Lakin Azərbaycan Respublikası CPM-nin 7-ci maddəsində «dayılar» yəni valideynin qardaşı yaxın qohumlar sırasına daxil edilməmişdir.

Odur ki, məhkəmə kolleqiyası hesab edir ki, birinci instansiya məhkəməsi təqsirləndirilən şəxsin, zərərçəkmiş şəxslərin və şahidlərin ifadələri, iş üzrə keçirilmiş ekspertizaların rəylərinə və işin faktiki hallarına əsaslanmaqla haqlı olaraq N.M.Qasımovun təqsirinin təsdiq olunması nəticəsinə gəlmiş və əməlini düzgün olaraq Azərbaycan Respublikası CM-nin 333.1, 334.1 maddələri ilə tövsif etmişdir.

Eyni zamanda məhkəmə kollegiyası N.M.Qasımova cəza təyin edilməsi məsələsini müzakirə edərək hesab edir ki, birinci instansiya məhkəməsi bu məsələni həll edərkən bir sıra cəzanı yüngülləşdirən halları nəzərə almamışdır.

Belə ki, yuxarıda qeyd edildiyi kimi Namiq Mayıl oğlu Qasımov tərəfindən hərbi hissəni 08 iyul 2000-ci il tarixdən 12 iyul 2000-ci il tarixə kimi tərk etməsi « ağır şərait zəminində» olmasada, dayısının ölüm xəbərini alması onun bu cinayətin törətməsində məsuliyyətini yüngülləşdirlən hal kimi qəbul edilməlidir.

Bundan başqa, hökmə əsasən N.M.Qasımov gizirlərin hazırlıq kursunda müdavim kimi xidmət edərkən hərbi xidmətdən boyun qaçırtmaq məqsədi ilə 23 iyul 2000-ci il tarixdə saat 18 radələrində qulluq yerini özbaşına buraxıb getmiş və bir daha qulluq yerinə qayıtmamış, 06 mart 2001-ci il tarixdə təqsirini boynuna almaqla könüllü olaraq Bakı qarnizonu hərbi prokurorluğuna gəlmişdir.

İş materiallarından göründüyü kimi Bakı qarnizon hərbi prokurorluğunun xüsusilə mühüm işlər üzrə müstəntiqin 22.03.2001-ci il tarixli qərarı ilə N.Qasımov, hərbi hissənin ərazisini tərk etdiyi 23 iyul 2000-ci il tarixə bir il altı ay ərzində həqiqi hərbi xidmət keçmiş hesab olunmuşdur.

Məhkəmə kollegiyası cəzanın yüngülləşdirən bütün bu hallara və onlarla yanaşı həm də birinci instansiya məhkəməsinin hökmdə göstərdiyi hallara (cəzanın yüngülləşdirən bütün halların məcmusuna) əsaslanaraq belə qənaətə gəlir ki, Qasımov Namiq Mayıl oğlunun cəza çəkmədən islah olunması mümkündür və onun barəsində azadlıqdan məhrum etməklə bağlı olmayan cəza təyin edilməsi məqsədə müvafiq hesab olunmaqla təyin olunacaq cəza onun islah edilməsi məqsədini və Azərbaycan Respublikası CM-nin 41.2 maddəsində nəzərdə tutulmuş digər məqsədləri tam təmin edir.

Odur ki, məhkəmə kolleqiyası hesab edir ki, Bakı Hərbi Məhkəməsinin 24.04.2008-ci il tarixli hökmü dəyişdirilməli və N.M.Qasımova təyin edilmiş 4 il 6 ay azadlıqdan məhrum etmə cəzası Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinə əsasən şərti tətbiq edilməlidir.

Şərh olunanlara əsasən və Azərbaycan Respublikası CPM-nin 397.1, 397.2 və 398.1.4-ci maddələrini rəhbər tutaraq Bakı Apellyasiya Məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyası

**QƏRARA ALDI:**

Məhkum N.M.Qasımovun müdafiəçi M.S.Cahangirovun apellyasiya şikayəti təmin edilsin.

Qasımov Namiq Mayıl oğlunun Azərbaycan Respublikası CM-nin 333.1, 334.1 maddələri ilə məhkum olunmasına dair Bakı Hərbi Məhkəməsinin 24.04.2008-ci il tarixli hökmü dəyişdirilsin.

Qasımov Namiq Mayıl oğluna təyin edilmiş 4 il 6 ay azadlıqdan məhrum etmə cəzası Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinə əsasən 2( iki) il sınaq müddəti təyin olunmaqla şərti tətbiq edilsin.

N.M.Qasımov barəsində seçilmiş « həbs» qətimkan tədbiri ləğv edilərək həbsdən azad edilsin.

N.M.Qasımovun davranışı üzərində nəzarət Bərdə rayon məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları şöbəsinə həvalə edisin.

Hökmün qalan hissəsi dəyişdirilmədən saxlanılsın.

Qərar elan edildiyi andan qanuni qüvvəyə minir.

Qərardan Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya qaydasında şikayət və ya protest verilə bilər.

SƏDRLİK EDƏN: imza
HAKİMLƏR: imzalar

Əsli ilə düzdür
İş üzrə sədrlik edən: F.A.Qasımov
.